

**Bütün bölgələrimizdə olduğu kimi Kəlbəcər Rayon Mədəniyyət və Turizm Şöbəsi də öz üzərinə düşən məsul vəzifələrin vaxtlı-vaxtında yerinə yetirilməsi üçün müəyyən işlər görür.**

# Mədəni tədbirlərin səviyyəsini yüksəltməyə çalışırıq

**Belə ki, qədim Gəncə torpağında məskunlaşan Kəlbəcər Rayon Mədəniyyət və Turizm Şöbəsi rayon əhalisinə göstərəcəyi mədəni xidmətlərini, mədəni-kütləvi tədbirlərin siyahısını ardıcıl şəkildə planlaşdırmış, bayramlar, tarixi günlər, faciə günləri, rayonların işğal olunduğu günlər plana əlavə olunmuşdur.**

Mədəniyyət şöbəsi yeni il şənliyini, 20 yanvar faciə gününü, 8 mart Beynəlxalq Qadınlar bayramını, Bahar bayramını, 1 iyun Uşaqları Beynəlxalq Müdafiə gününü, 28 may Azərbaycanın Müstəqillik gününü, hərbi hissələrdə Hərbçilər gününü



S.Musayev A.Bayramovla





Uşaqların qoşulduğu konsert

hazırlanmış konsert proqramı ilə rayon ictimaiyyəti qarşısında sənətçilərimizin iştirakı ilə keçirmişik.

2010-cu il 16 mart tarixdən 21 marta kimi möhtərəm prezidentimizin və mədəniyyət nazirimizin sərəncamları əsasında Bakı şəhərində keçirilən "Novruz" bayramına bizim kollektiv də dəvət alıb.

Burada göstərdiyimiz rayonumuzun folkloruna aid olan "Maral" oyunu, aşıqların kollektiv ifaları respublikada rəğbətlə qarşılandı. Milli parkımızda sənətçilərimiz bacarıqla çıxış etdilər. Onların çıxışları Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin çox xoşuna gəldi və o icra başçısına və rayon mədəniyyət və turizm şöbəsinə təşəkkür məktubu göndərdi.

Bu ilin aprel ayında Gəncədə Respublika Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi "Xor" müsa-



Kəlbəcər aşıqlarının çıxışı



Ş.Kərimov və İ.Allahverdiyev

biqəsində incəsənət məktəbimizin xor kollektivi layiqli yer tutmuş və tərifnaməyə layiq görülmüşdür.

Kəlbəcər rayon icra hakimiyyəti başçısı Vidadi Məhərrəmovun, mədəniyyət və turizm nazirinin tapşırıq və göstərişlərinə daim əməl olunmuş, rayonun mədəni irsinin qorunub saxlanmasında, istedadların üzə çıxarılmasında şöbənin bütün işçiləri əlindən gələni əsirgəməmişdir.

Sevindirici haldır ki, Rayon Mədəniyyət və Turizm Şöbəsi rayonun bütün tədbirlərində həmişə öz fəallığı, təşəbbüskarlığı ilə fərqlənmişdir. Bu il də "hərəyə bir ağac əkək" respublika çağrışına rayonun digər idarə və müəssisələri kimi biz də həvəslə qoşularaq 120 ağac əkib becərdik.

Bundan başqa mədəniyyət şöbəsi əməkdaşları cənub bölgəsində təbii fəlakətə kömək məqsədilə oraya daş yüklənmiş kamazlar göndərmişdir.

2008-2013-cü il proqramını rəhbər tutaraq rayon Mədəniyyət evində "Kəlbəcərsiz Kəlbəcər dünyası" devizi altında kitab bayramı keçirilmişdir. Gəncədən, Xanlardan bu münasibətlə əməkdaşlar dəvət olunmuş, rayon icra hakimiyyətinin nümayəndələri tədbirə qatılmışlar.

**Lakin onu da deməyi əsas bilirəm ki, görülmüş işlərlə yanaşı, hələ də müəyyən çatışmazlıqlarımız da vardır. Belə ki, respublikanın 56 rayonuna pənah gətirmiş kəlbəcərlilərə tam şəkildə xidmət göstərə bilmirik. İdarəmizin nəzdində minik maşını yoxdur ki, qastrol səfərləri təşkil edək. Ayrı-ayrı rayonlarda mədəniyyət müəssisələrinin olmaması da işimizi çətinləşdirir. Yəqin ki, əlaqədar təşkilatlar bizə bu sahədə müəyyən köməklik göstərsələr, biz də kəlbəcərlilərin mədəni-kütləvi tədbirlərdə iştirakına gözəl şərait yarada bilərik.**

**● S.MUSAYEV,**
***Kəlbəcər Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri***



Aşıq Telman Verdiyev



S.Musayev mədəniyyət işçiləri ilə